# Yazıçının "Yazılmayan yazı"sı...

**Onun əsərlərində XX əsr Azərbaycanının gerçəkliyi, həm yaxşı bələd olduğu kənd, həm də şəhər həyatı əks olunub. Sabir Əhmədli hansı hadisəni, məkanı, zamanı mövzu seçibsə, qələmə alıbsa, uğur qazanıb. Yazıçı ən böyük məqsədinə çatıb, oxucusunu təsvir etdiyi hadisələrin, oradakı insanların doğruluğuna inandırmağa müvəffəq olub. Çünki həyatın özünü yazıb. Belə demək olar ki, həyatın reallıqları yazıçı qələminə tuş gəlib, onlara bədii naxışlar vuraraq, cilalayaraq ədəbiyyat nümunəsi kimi oxucuya təqdim edib...**

## Könlünün aparacağı yol...

Onun qismətinə 1930-cu il iyulun 10-da Cəbrayıl rayonunun Cəbrayıl kəndində dünyaya gəlmək düşüb. Orta məktəbi bitirib. Ədəbiyyat sevgisini ali təhsil almaq istəyinə qoşub Bakıya gəlib. Azərbaycan Dövlət Universitetinin Filologiya fakultəsində oxuyub. 1951-ci ildə təhsilini başa vurub.

Doğulub, boya-başa çatdığı torpaqlara pedaqoq kimi qayıdıb. 1951-1954-cü illərdə Cəbrayıl rayon mərkəzində müəllimlik edib. 1955-1956-cı illərdə Şükürbəyli kənd orta məktəbinin direktoru olub.

Könlünün yolu ədəbiyyataydı. O zamanlar bunu artıq çoxları bilirdi. Çünki ədəbi fəaliyyətinin başlanğıcı sayılan "Poçtalyon" hekayəsi 1951-ci ildə "Pioner" jurnalında dərc olunmuşdu...

Bu yol onu yenidən Bakıya gətirib. 1956-1993-cü illərdə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi, nəsr şöbəsinin müdiri, 1993-1996-cı illərdə isə baş redaktor işləyib.

Azərbaycan Yazıçılar İttifaqının üzvlüyünə 1955-ci ildə qəbul edilib. Azərbaycan Yazıçılar İttifaqının Mirzə Fətəli Axundov adına ədəbi mükafat komissiyasının sədri seçilib.

1961-ci ildə "Bir payız axşamı" kitabı işıq üzü görüb. Sonralar ədəbiyyatsevərlər onu "Aran" ikihissəli romanı, "Pillələr", "Yamacda nişanə", "Toğana", "Yasamal gölündə qayıqlar üzür", "Mavi günbəz" povestləri, "Gedənlərin qayıtmağı, dünyanın arşını", "Yasaq edilmiş oyun", "Gülməli kişinin axırı", "Kütlə", "Öpmə məni, öpərəm səni", "Sevişməyin cəzası", "Axirət sevdası", "Şəhid ruhu" və digər kitabların müəllifi kimi tanıyıblar.

Yazıçı dilinin rəvanlığı, oxucusuna təsir etmək, inandırmaq bacarığı daim etiraf olunub. Tənqidçi Qulu Xəlilov onun yaradıcılığı barədə yazıb: "Sabir Əhmədov əlinə qələm aldığı ilk gündən kotanlı-belli, oraqlı-çinli, dəryazlı bir kənd müdriki, el adamı, torpaq oğlu kimi bu aləmdən bütün varlığı ilə yapışmış, xalqın sevinc və kədərini, yeni həyat tərzini, düşüncələrini, yaşamaq uğrunda mübarizəsini yaradıcılığına hopdurmuşdur. Müasir Azərbaycan



kəndinin təxminən yarım əsri onun əsərlərində bədii-estetik tərzdə əks olunmuşdur..."

"Əmək şöhrətinə görə" medalı (1975), "Əməkdar incəsənət xadimi" fəxri adı (1984), "Xalqlar Dostluğu" və "Qırmızı Əmək Bayrağı" ordenləri ilə təltif edilən, "Qızıl sünbül" ədəbi mükafatının laureatı (1991), Xalq yazıçısı (1992) Sabir Əhmədli təkcə Azərbaycanda tanınmayıb. Əsərləri keçmiş SSRİ məkanı və xarici ölkə xalqlarının dillərinə tərcümə edilib.

1992-1993-cü illərdə Qarabağ hadisələrinə həsr etdiyi irihəcmli ədəbi-publisistik məqalələri - "Qarabağın gecikmiş yazı", "Qarabağın qarlı səngərləri" mətbuatda dərc olunub. Umumiyyətlə, XX əsrin son onilliyindən başlayaraq milli azadlıq hərəkatı, 20 Yanvar faciəsi, Qarabağ münaqişəsi, erməni təcavüzü, Sumqayıt hadisələri, qaçqınlıq problemi, yurd həsrəti, müharibənin gətirdiyi bəlalar, ağrı-acılar Sabir Əhmədlinin yaradıcılığının əsas mövzuları olub. "Ömür urası", "Axirət sevdası", "Kef" romanları meydana çıxıb.

## Müharibə yaraları...

O, ömrünün həm ilk, həm də ahıl çağlarında müharibə yarası alıb. Sabir Əhmədli şəhid qardaşı, şəhid atasıydı...

Böyük qardaşı Cəmil Əhmədov İkinci Dünya müharibəsində şücaət göstərib. On səkkiz yaşından cəbhəyə yollanıb. Ağır döyüşlərdə iştirak edib, dönə-dönə yaralanıb. Sağaldıqdan sonra yenidən döyüş meydanına atılıb. Polşada, Narev çayı sahilində, Zalupitsa yaşayış məntəqəsini azad etmək uğrunda döyüşdə dörd dəfə yaralanıb. 1944-cü ilin 6 oktyabrında aldığı sonuncu yara onu gənc yaşda həyatdan qoparıb.

Sağlığında Sovet İttifaqı Qəhrəmanı kimi yüksək fəxri ada layiq görülən, məzarı uzaq Polşada, qardaşlıq qəbiristanlığında qalan igidin doğma yurdunda - Cəbrayılda heykəli ucaldılıb.

Sabir Əhmədli sonralar böyük qardaşı haqqında "Biz yenə görüşəcəyik" adlı sənədli bir povest yazıb. Qardaş həsrəti iyirmi il sonra onu Polşaya aparıb. O günün ağrılarını oxucu belə tanıyıb: "Kiçik qardaş böyük qardaşın qəbri üstündə ağlayırdı, ana! Otuz beş yaşlı kiçik qardaş, iyirmi yaşlı böyük qardaşını tapmışdı. İndi o, ailəmizdə hamıdan kiçikdir, onun üçün zaman yoxdur. Ona aid olan zaman iyirmi il əvvəl bir gecə səhərəcən qurşağa qədər bir çayda qalıb döyüşəndən sonra əvvəlcə qoluna, sonra qıçına, sonra başına dəyən güllə ilə dayanıb".

..."Orta-böyük otaqda çəhrayı ipək örtük salınmış cənazə qoyulmuş, anası başdan oturmuş, xalaları, qonum-qonşu cənazə dövrəsində halay qurub əyləşmişdilər.

- Yox! Yox! Yox... Ola bilməz. İnanmaram! Məhəmməd, balam mənim! İnanmaram! - cənazənin ayağında çöküb, dizin-dizin onun üstünə can atdım. - Açın üzünü! Götürün örtüyü! Mən onu görmək istəyirəm!.. Mən səni haralarda axtardım, balam?! Gəlibmişsən, özün gəlibmişsən! Məndən qabaq gəlib çıxmısan evimizə". Bu sətirlər də Sabir Əhmədlinin əsərindədir. Şəhid balasını bağrına basan ata isə o özüdür...

Könüllü olaraq cəbhəyə, Qarabağ uğrunda döyüşlərə gedən oğlu Məhəmməd Əhmədov 1994-cü il fevralın 12-də ad günündə Murovda şəhid olmuşdu. Bu faciədən xəbərsiz ata oğluna verdiyi sözü yerinə yetirmək, ad günündə Məhəmmədin yanında olmaq üçün qarlı, çovğun havada cəbhə bölgəsinə yollanıb. Beyləqanda, Gəncədə, Murovda oğlunu axtarıb.

Geriyə Məhəmmədi görməsə də ondan ümidini üzmədən dönüb. Gəncəyə, dostunun evinə qayıdıb. Ona Məhəmmədin yaralanması xəbərini veriblər. Ancaq Bakıda, Yasamaldakı evinin dikdirinə qalxıb həyətindəki yas çadırını görəndə də oğlunun ölümünə inanmayıb...

Sabir Əhmədlinin "Axirət sevdası" romanı şəhid oğul dərdini, ata iztirablarını əbədiləşdirib.

Nasir, publisist Sabir Əhmədli 2009-cu il aprelin 17-də Bakıda vəfat edib. Ən son romanı "Yazılmayan yazı"dır. Avtobioqrafik səpgidə qələmə alınan bu əsərin çapını yazıçı görmədi...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2020.-2 sentyabr.- S.7.